**A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I**

**BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**S Ə R Ə N C A M I**

№ 141 "01" iyul 2016-cı il

**"Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 27 aprel 2016-cı il tarixli 1993 nömrəli Sərəncamının icrası ilə əlaqədar Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının 2016-cı il üçün İş Planının təsdiq edilməsi haqqında**

Açıq hökumət prinsiplərinin tətbiqinin genişləndirilməsi, korrupsiyanın qarşısının alınması üzrə yeni mexanizmlərin tətbiqi, vətəndaş cəmiyyəti institutlarının fəaliyyətinin və ictimai nəzarətin gücləndirilməsi, sahibkarların hüquqlarının müdafiəsi, "Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" və "Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədi ilə "Yerli İcra Hakimiyyətləri haqqında Əsasnamənin 6,8-ci bəndinə əsaslanaraq

**q ə r a r a a l ı r a m:**

1. "Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı"nın və Korrupsiyaya qarşı mübarizəyə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı" çərçivəsində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsi məqsədi ilə Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının 2016-cı il üçün İş Planı təsdiq edilsin (əlavə 1).

2. Rayon İcra Hakimiyyəti başçısının müavinlərinə və Aparatın şöbə müdirlərinə tapşırılsın ki, İş Planında nəzərdə tutulmuş işlərin icrasını təmin etsinlər və ilin yekunu üzrə görülmüş işlər barədə məlumatları 20 dekabr 2016-cı il tarixinədək Aparatın İnformasiya təminatı və təhlil sektoruna təqdim etsinlər.

3. Rayon İcra Hakimiyyəti başçısı Aparatının İnformasiya təminatı və təhlil sektorunun müdiri N.Allahverdiyevə tapşırılsın ki, Aparatın şöbələri tərəfindən təqdim olunmuş məlumatlar əsasında illik hesabatı hazırlayıb Azərbaycan Respublikası Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına təqdim olunmasını təmin etsin.

4. Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Xaləddin İsgəndərov**

**№ 142**

ƏSLİ İLƏ DÜZDÜR:

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** Elnur İmanov

**əlavə № 1**
*Binəqədi Rayon İcra Hakimiyyəti başçısının*
*01.07.16 tarixli 141 saylı sərəncamı*
*ilə təsdiq edilmişdir*

**Açıq Hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planının icrası ilə əlaqədar**
**Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının 2016-cı il üçün**

# İ Ş P L A N I

| | Görüləcək işlərin adı | İcraçılar | İcra müddəti | Qeyd |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| | **1. Elektron xidmətlərin təkmilləşdirilməsi** | | | |
| 1.1 | "Elektron hökumət"portalının imkanları və istifadəsi ilə bağlı vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərinin və təqdimatların keçirilməsi | İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri E.Dadaşov<br><br>İnformasiya təminatı və təhlil sektorunun müdiri N.Allahverdiyev | | |
| 1.2 | Elektron xidmətlərin tətbiqi ilə əlaqədar dövlət orqanları tərəfindən tələb edilən rəsmi sənəd və arayışların sayının azaldılmasının təmin edilməsi | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri R.Göyüşov<br><br>Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri E.İmanov<br><br>İnformasiya təminatı və təhlil sektorunun müdiri N.Allahverdiyev | | |
| | **2. İnformasiya əldə edilməsinin təmin olunması** | | | |
| 2.1 | Dövlət orqanlarının internet səhifələrinin mobil versiyalarının hazırlanması, sosial şəbəkələrdə səhifələrin açılması və onların aktiv fəaliyyətinin təmin edilməsi | İnformasiya təminatı və təhlil sektorunun müdiri N.Allahverdiyev<br><br>İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri E.Dadaşov | | |

| | | | | |
|---|---|---|---|---|
| **3. Vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin genişlənməsi və ictimai iştirakçılığın artması sahəsində** | | | | |
| **3.1 Vətəndaş cəmiyyəti üzvlərinin fəaliyyətinin dəstəklənməsi** | | | | |
| 3.1.1 | Açıq hökumət prinsiplərinin təşviqi və korrupsiyanın qarşısının alınması istiqamətlərində qeyri-hökumət təşkilatlarının layihə və təşəbbüslərinə dəstəyin prioritet istiqaməti kimi müəyyən edilməsi | İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri E.Dadaşov<br><br>Hüquq şöbəsinin müdiri Y.Hüseynov | | |
| 3.1.2 | "Açıq Hökumət Tərəfdaşlığı "vətəndaş cəmiyyəti platformasının yaradılması və fəaliyyətinin dəstəklənməsi | İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri E.Dadaşov<br><br>Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri R.Göyüşov | | |
| **4. İctimai iştirakçılığın genişləndirilməsi** | | | | |
| 4.1 | İctimai şuranın fəaliyyətinın təşkil edilməsi, gücləndirilməsi və ictimai şura tərəfindən irəli sürülən sosial təşəbbüslərin dəstəklənməsi | İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri E.Dadaşov<br><br>Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri R.Göyüşov | | |
| 4.2 | İctimai şuranın tərkibi və fəaliyyəti ilə bağlı rəsmi internet resurslarında ayrıca bölmələrin yaradılması və məlumatların mütəmadi yenilənməsi | İnformasiya təminatı və təhlil sektorunun müdiri N.Allahverdiyev<br><br>İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri E.Dadaşov | | |
| **5. Maliyyə şəffaflığının təmin edilməsi** | | | | |
| 5.1 | Büdcə təşkilatları tərəfindən dövlət satınalmaları ilə bağlı məlumatların internet səhifəsində yerləşdirilməsi | Aparatın Sektor müdiri-baş mühasibi H.Dadaşova<br><br>İnformasiya təminatı və təhlil sektorunun müdiri N.Allahverdiyev | | |
| **6.Yerli özünüidarəetmə orqanlarının fəaliyyəti sahəsində** | | | | |
| **6.1 Bələdiyyə qulluğuna qəbul prosesində şəffaflığın təmin edilməsi** | | | | |
| 6.1.1 | Bələdiyyə qulluğuna qəbul qaydaları, müsabiqə komissiyalarının tərkibi, mövcud vakansiyalar, qəbulun | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri R.Göyüşov | | |

| | | | | |
|---|---|---|---|---|
| | nəticələri və bələdiyyə qulluğuna qəbulla bağlı digər məlumatların bələdiyyələrin internet səhifəsində yerləşdirilməsi, mərkəzləşdirilmiş vahid elektron resursun yaradılması üzrə tədbirlərin görülməsi | | | |
| 6.1.2 | Bələdiyyə qulluğuna qəbulla bağlı zəruri metodiki vasitələrin internet səhifələrində yerləşdirilməsi | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri R.Göyüşov<br><br>İnformasiya təminatı və təhlil sektorunun müdiri N.Allahverdiyev | | |
| **6.2 Bələdiyyə qulluqçularının etik davranış qaydaları barədə məlumatlandırılması və peşəkarlığının artırılması** | | | | |
| 6.2.1 | Bələdiyyə qulluqçuları üçün etik davranış qaydaları, hüquqi biliklərin və peşə bacarıqlarının artırılması üzrə təlimlərin keçirilməsi, bununla bağlı izahedici məlumatların internet resurslarında yerləşdirilməsi | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri R.Göyüşov<br><br>İnformasiya təminatı və təhlil sektorunun müdiri N.Allahverdiyev | | |
| **7. Korrupsiyanın qarşısının alınması sahəsində tədbirlər və qanunvericiliyin təkmilləşdirilməsi** | | | | |
| 7.1 | “Asan xidmət” mərkəzlərində rəhbər tutulan fəaliyyət prinsiplərinə şəffaflıq standartlarının dövlət orqanlarında tətbiqi ilə bağlı tədbirlərin həyata keçirilməsi | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavinləri<br><br>Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının şöbə müdirləri | | |
| 7.2 | Sahibkarların qarşılaşdıqları problemlərin həlli məqsədi ilə onların müraciətlərinə baxılması işinin təkmilləşdirilməsi və müvafiq tədbirlərin görülməsi | Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavinləri<br><br>Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının şöbə müdirləri | | |
| 7.3 | İqtisadi sahədə həyata keçirilən islahatlar, onların məqsədi və mahiyyəti barədə ictimaiyyətin məlumatlandırılmasının təmin edilməsi | RİH başçısının müavini V.İsmayılov<br><br>Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Y.Əliyev | | |

| 8. Fəaliyyət planının icrasının monitorinqi və nəzarətin təşkili | | | | |
|---|---|---|---|---|
| 8.1 | Fəaliyyət Planının icrasının monitorinqi prosesinə informasiya texnologiyalarının tətbiqi üzrə tədbirlərin görülməsi | İnformasiya təminatı və təhlil sektorunun müdiri N.Allahverdiyev | | |
| 8.2 | Dövlət orqanlarının daxili nəzarət qurumları ilə korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış orqanlar arasında məlumat mübadiləsi və səmərəli əlaqələndirmənin təşkili | Hüquq şöbəsinin müdiri Y.Hüseynov | | |
| 8.3 | Fəaliyyət planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın qurulması və onların fəaliyyətinin dəstəklənməsi | İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri E.Dadaşov<br><br>Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri R.Göyüşov | | |